Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Gözəl Mələkə Ester

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Ester adında gözəl bir qız var idi.  Onun atası və anası öləndə, Esterin əmisi oğlu Mordokay onu saxladı.  Ester yaxşı bir qız kimi öz əmisinə itaət edirdi.





Ester Fars ölkəsində yaşayırdı.  Amma Ester fars deyildi.  O, Yəhudi idi.  Onun əcdadları Fars ölkəsinə döyüş varxtı sürgün edilmişdilər.



Esterin günlərində Yəhudilərin bir
çoxu Fars ölkəsində yaşayırdı.

Fars padşahı dünyanın bütün şahzadələri üçün böyük bir ziyafət qurdu. Kişilər mələkə Vaşti ilə birlikdə ziyafət edən qadınlardan ayrı yeyib-içirdilər.



Sərxoş padşah mələkə Vaştiyəmələkəlik tacını taxmasını və öz gözəlliyini göstərməsini əmr etdi. Mələkə Vaşti imtina etdi.



Qadınların
öz ərlərinə
hörmət etməsini
göstərmək üçün
padşah qanun çıxartdı
ki, bu da Vaştidən
mələkəlik tacını aldı.
O artıq mələkə
deyildi.



Yeni mələkə üçün axtarış başlandı. Padşahlıqda olan bütün gözəl qızların içərisindən padşah Esteri özünə arvad seçdi.



Padşah məlakəlik tacını Esterin başına qoydu.  Ester padşaha Yəhudi olduğunu demədi, çünki onun əmisi oğlu ona bunu deməməyi demişdi.





Əmisi oğlu Mordokay saraya girərkən Esterin xəbərini eşitdi. Bir gün o, iki saray işçisinin padşahı öldürmək haqda planlarını eşitdi.



Mordokay padşahın həyatını xilas edən xəbərdarlığı göndərdi. Qulları asdılar və Mordokayın adı padşahın xatirə kitabında yazıldı.

Padşahdan sonra ikinci adam olan Haman varlı adam idi.  Hamı Haman keçərkən ona baş əyirdi. Bir nəfərdən başqa hamı.  Bir Yəhudi olaraq, Mordokay yalnız yaşayan Allaha ibadət edirdi.



Haman Mordokaya o qədər nifrət edirdi ki, onu və Fars ölkəsində olan bütün Yəhudiləri öldürməyi qərara aldı.





Bu, dəhşətli bir qanun idi. Həm Yəhudilər və həm də Farslar yas tutdular. Amma xatırlayırsan? Allah Esteri mələkə etmişdi.



O, Yəhudi
idi.  O öz
sirrini padşahdan
saxlayacaqdımı?
Yoxsa o, ölüm riskinə
gedərək, öz xalqını xilas
etməyə çalışacaqdı?

Allah Esterə ağıllı bir fikir verdi. O, padşahı və Hamanı ziyafətə dəvət etdi. Orada padşah Esterə istədiyi hər şeyi verəcəyini söz verdi.



Ester dedi: “Əgər padşahın xoşuna gələrsə, bu gün onun üçün qurduğum ziyafətə gəlsin, Hamanı da gətirsin”. Onda o, padşaha demək istədiyi şeyi deyəcək?



Bu arada Haman Mordokayı edam etdirmək üçün hündürlüyü əlli qulac olan bir dar ağacı düzəltdirir.



Həmən gecə padşahın yuxusu qaçır. Xatirə kitabını oxuyaraq o gördü ki, Mordokay onun həyatını xilas etdiyinə görə heç vaxt mükafatlandırılmamışdı.



Ertəsi günü səhər padşah Hamandan soruşdu: “Padşahın şərəfləndirmək istədiyi adama nə edilməlidir?” Haman coşdu.



O fikirləşdi ki, padşah onu nəzərdə tutur!

Haman padşahdan Mordokayı edam etmək izni almaq üçün gəlmişdi. Dar ağacı hazır idi. İndi o gözləyə bilərdi. Haman həyəcanlı-həyəcanlı öz məsləhətlərini paylaşdı.



“Ona padşahın geyindiyi şahlıq
libası geyindirilsin və başına şahlıq tacı
qoyulsun.”  “Onu padşahın atına
mindirsinlər.  Ən yüksək rütbəli
rəislərindən biri padşahın
şərəfləndirmək
istədiyi
adamı ...



... geyindirərək ata mindirsin və hamının görməsi üçün şəhər meydanında gəzdirsin”. Padşah Hamana əmr etdi: “Tələs və Yəhudi Mordokay üçün bunları et”.




Səncə, Haman Mordokayı şöhrətlə şəhər ətrafında gəzdirərkən necə hiss etdi? O, Mordokaya
...



... əvvəlkindən daha çox nifrət etdi. Haman fikirləşdi: “Hələ gözlə”. “Tezliklə o, bütün Yəhudilərlə birlikdə öləcək”.

Həmin günün axşamı Padşahla Haman mələkə Esterin ziyafətinə gəldi. Padşah yenə Esterə dedi: “Mələkə Ester, nə istəyirsən?”  O, öz vədini unutmamışdı.



Hamana işarə edərək, mələkə Ester padşaha Hamanın bütün pis düşüncələri haqqında danışdı. Padşah dedi: “Onu edam edin!”



Sonra padşah Yəhudilərə özlərini müdafiə etmək üçün digər bir qanun da çıxartdı. Onların hamısı xilas oldu!  Mordokay padşahdan sonra ikinci adam ...



... oldu və bütün Yəhudilər sevindilər və bir-birlərinə hədiyyələr verdilər.  Hətta bu gün də, Yəhudilər Allahın gözəl mələkə Ester vasitəsilə onları necə xilas etdiyini xatırlayırlar.



# Gözəl Mələkə Ester

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Ester

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130


Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**